Tərbiyə məsələləri

İ.ŞIXLININ "DƏLİ KÜR" ROMANINDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR

İramin İsayev
Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru

Sevda Tağıyeva
Bakı Qızlar Universitetinin dosenti

Açar sözlər: *mənəvi dəyərlər, pedaqoji ustalıq, məktəb, təhsil, tərbiyə.*
Ключевые слова: *этические ценности, педагогическое мастерство, школа, образование, воспитание.*
Key words: *moral values, pedagogical competency, school, education, upbringing.*

Ümumtəhsil məktəblərinin XI sinifləri üçün "Ədəbiyyat" dərsliyində "XX əsrin ortalarından bu günə qədər Azərbaycan ədəbiyyatı" bölməsində tədris edilən Rəsul Rza, Mirzə İbrahimov, İlyas Əfəndiyev, Bəxtiyar Vahabzadə ilə birlikdə müasir Azərbaycan romançılığının inkişafında əvəzsiz xidmətləri olan İsmayıl Şıxlının "Dəli Kür" romanı da tədris edilir. Bu da təbiidir. "Dəli Kür" xəlqilik dəyərlərinin və həqiqətlərinin bədii təsvirini verən epik miqyaslı bir romandır. XIX əsrin sonlarındakı Azərbaycan kəndinin geniş mənzərəsini verən bu əsərdə sanki iki dünya üz-üzə dayanmışdır. Bütün əsər boyu tarixi prosesin əsas istiqaməti bir-birini izləyir. "Dəli Kür"ün fikir vüsəti həyat həqiqətlərinin dərinliyi ilə fərqlənir. Yazıçı burada özünü xalq həyatını xalq köklərini sevən və onu yazıçı qəlbində duyan bir romançı kimi təsdiq etmişdir.

Azərbaycanın xalq yazıçısı İsmayıl Şıxlı ədəbiyyatımız tarixində özünəməxsus yeri olan görkəmli simalardan biridir. O, istedadlı yazıçı olmaqla yanaşı, ictimai-siyasi xadim, publisist, tərcüməçi kimi də hörmət və ehtirama layiqdir. Bəlkə də, onun bütün bu imkanlara malik olmasının əsasında xüsusi pedaqoji məharətə malik istedadlı müəllim olması dayanır. Yaradıcı şəxsiyyət kimi tanınan İ.Şıxlının yaradıcılıq laboratoriyası özünün əhatə dairəsi, coğrafiyasının zənginliyi, çoxşaxəliliyi ilə fərqlənir. Bu məramı Azərbaycan xalqının müəyyən tarixi məkan və zaman çərçivəsində millətinə məxsus yaşayış tərzini, məişətini, mədəniyyətini, maarifini və əxlaqi-mənəvi dəyərlərini özündə ehtiva edən tarixi "Dəli Kür" romanı təsdiq edir. Milli-mənəvi dəyərlər romanın hər sətrindən süzülməkdədir. Bu da təbiidir.

Mənəviyyat tariximizi özündə əks etdirən, ümumiləşdirilmiş dəyərlər sistemi ilə həmişəyaşıl ağaca bənzəyən "Dəli Kür" öz gözəlliyi və təravətini daima saxlayan bir əsər kimi Azərbaycan xalqına məxsus tarixi reallıqların birgə mövcudluğunu, qarşılıqlı əlaqəsini, doğruluğu ilə əks etdirir. Bu ideyalar toplumu, eyni zamanda millətimizin tarixi özəlliyini və milli özünüdərkin müxtəlif inkişaf mərhələlərində obyektiv zərurət olaraq hansı formada təzahür edərək istiqamətləndiyini aşkarlayır. Bu da müasir gənclikdə xalqa məxsus mədəni-intellektual imkanların, zəngin mədəniyyətin, ənənələrin milli şüur və düşüncə səviyyəsinin dərk olunması təminatçısı kimi çıxış edir. Deməli, "Dəli Kür" romanı çoxrəngli spektri, diapazon genişliyi və əhatəliliyi baxımından millətimizin nəinki həyatiliyini, eyni zamanda bütöv həyatın özünü əks etdirir. Çünki İ.Şıxlı bir insan olaraq özü də bütöv şəxsiyyətdir. O, öz xalqına məxsusdur. Ona görə də millətinin yaratmış olduğu mənəvi dəyərlərdən bəhrələnərək öz yaradıcılığını quran ən xoşbəxt şəxsiyyətlərdəndir. Çünki onda xalqın yaradıcı qüvvəsinə böyük inam vardı. Belə yaradıcı simalara öz rəğbətini bildirən böyük rus pedaqoqu K.D.Uşinski belə şəxsiyyətləri xoşbəxt hesab etmişdir. Millətinin rifahı, onun gələcəyi naminə çalışan, onun ümumbəşəriliyini təbliğ edən, dünya üzrə tanıdan şəxsiyyətlərə Ulu öndər Heydər Əliyev xüsusi inam və ehtiramını bildirərək yazırdı: "Görkəmli şəxsiyyətlər xalqın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdirirlər".

Çox əhəmiyyətlidir ki, İ.Şıxlı haqqında yazılan tədqiqat əsərləri içərisində Əzizxan Tanrıverdinin son tədqiqat əsəri olan "Dəli Kür" romanının poetik dili kitabı daha çox maraq doğurur. Bunun da səbəbləri aydındır. "Kitabi-Dədə Qorqud"un söz dünyası" (B., 2007), "Poeziyanın dili, dilin poeziyası" (B., 2008), "Azərbaycan dilinin tarixi qrammatikası" (B., 2010), "Dədə Qorqud kitabı"nda at kultu" (B., 2012), "Türk mənşəli Azərbaycan şəxs adlarının tarixi linqvistik tədqiqi" (B., 2012) monoqrafiyaları ilə ədəbi aləmin diqqətini cəlb etmişdir.

İ.Şıxlıdan yazanlar həmişə onun müəllimlik məharətinə, dinləyicini ələ almaq bacarığına xüsusi diqqət yetirmişlər. Belə ki, İ.Şıxlı APİ-nin filologiya fakültəsində xarici ədəbiyyatdan mühazirələr oxumuşdu. Sevimli tələbələri onun mühazirələrini indi böyük məhəbbətlə xatırlayırlar. Onun tələbəsi, hazırda isə, poetik dilini tədqiq edən Əzizxan Tanrıverdi yazır: "...1979-cu ildə onun çoxsaylı tələbələrindən biri də mən oldum. İ.Şıxlının mühazirələri o qədər canlı, o qədər şirin və məzmunlu idi ki, 90 dəqiqənin necə gəlib keçdiyini bilmirdik, növbəti mühazirələri isə həsrətlə gözləyirdik". Tale elə gətirir ki, Əzizxanın diplom işinə İ.Şıxlı rəhbərlik edir. Onun diplom işinin yekunu ilə əlaqədar otuz bir il bundan əvvəl öz xətti ilə yazdığı rəyin qorunub saxlanması, kitaba olduğu kimi daxil edilməsi müəlliminə olan inam və ehtiramdan xəbər verir.

İ.Şıxlının ədəbi-bədii yaradıcılığının müxtəlif aspektlərdə tədqiqinə həsr edilmiş çoxsaylı yazılara baxmayaraq, onun "Dəli Kür" romanında indiyə qədər gizli qalan, tədqiqata cəlb edilməmiş məqamların, pedaqoji ideyaların aşkarlanmasında "Dəli Kür" romanının poetik dili" kitabı xüsusi əhəmiyyət kəsb edir. Burada İ.Şıxlı haqlı olaraq XIX əsrin ikinci yarısında Azərbaycanda məktəb və pedaqoji fikrin tədqiqatçısı kimi təqdim edilir. Doğrudur, "Dəli Kür"də məktəb tarixi ilə əlaqədar arxiv sənədlərinə istinad edilir, bilərəkdən mənbələr göstərilmir, bədii obrazlarla yanaşı, real tarixi şəxsiyyətlərin (A.O.Çernyayevski, Semyonov, Kipiani və s.) fikirlərinə istinad edilir. Azərbaycan məktəb tarixində həmin şəxsiyyətlərin əməli işləri yüksək qiymətləndirilir.

Bunun təsdiqini biz, Qori Müəllimlər Seminariyasının nəzdində 1879-cu ildə Azərbaycan şöbəsinin təşkili və onun fəaliyyət göstərməsində görkəmli maarifçi A.O.Çernyayevskinin rolunun diqqətə çatdırılmasında görürük. Cənubi Qafqaz ölkələrinin Azərbaycan kəndlərindəki ibtidai məktəblər üçün bilikli və xüsusi hazırlığa

malik müəllimlər hazırlamağı qarşıya məqsəd qoyan Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin ilk inspektoru kimi Azərbaycan kənd və şəhərlərini gəzərək seminariya üçün tələbə toplamış, seminariyaya ilk qəbul olunmuş 32 nəfərdən 24 nəfəri A.O.Çernyayevski tərəfindən seçilmişdir. Azərbaycan müəllimlərinin böyük bir dəstəsi A.O.Çernyayevskidən dərs almışdır. Bu tarixi faktı İ.Şıxlı belə ifadə edir: "Cəmi otuz şagird seçə bilmişəm. Naxçıvandan üç nəfər gələcək. Şuşa rus-tatar məktəbində səksən nəfər oxuyur, onlardan on üç nəfəri bizim məktəbə daxil olmaq üçün ərizə yazıb. Şəkidən iki, Gəncədən beş, Dərbənddən üç uşağın gəlməsi yəqindir. Qazaxdan da dörd-beş nəfər gələsidi. Görək sözlərinin üstündə duracaqlarmı?". Şübhəsiz, bütün bunların mənbəyi göstərilməsə də, tarixi faktlara əsaslandığı şəksizdir.

A.O.Çernyayevski obrazı ilə onun azərbaycanlı məktəblilər üçün ana dilində dərsliklərin yaradılması məramı da kitabın maraqlı cəhətlərindən biridir. A.O.Çernyayevski rus millətindən olsa da, Azərbaycan dilini mükəmməl bilmiş, onu dərin məhəbbətlə sevmişdir. Bu fikri təsdiq etmək üçün tədqiqatçı romana istinadən yazır: "...Sizin sevmədiyiniz müsəlmanlarda belə bir məsəl var: "Yoldaş yoldaşa tən gərək, tən olmasa gen gərək"; "...Çernyayevski nəinki Azərbaycan dilini bilir, hətta Azərbaycan etnoqrafiyasına yaxından bələddir". Böyük rus pedaqoqu K.D.Uşinskinin ana dili təlimi ideyasının Azərbaycanda ilk davamçılarından biri olan A.O.Çernyayevski, Mirzə Elxanovun nəşr olunmamış "Vətən dili" adlı dərsliyinin istisna təşkil etdiyini nəzərə alsaq, şərqdə sövti üsulla ilk ibtidai əlifba - "Vətən dili" (1882) kitabının müəllifidir. Eyni kitabın ikinci hissəsi 1888-ci ildə S.B.Vəlibəyovla birlikdə yazılmış "Türki-Azərbaycan dilində təlim-qiraəti, inşa və imla məşğuliyyəti üçün kitabı"dır. O, eyni zamanda azərbaycanlı uşaqlar üçün yazdığı "Rus dili" (1883) dərsliyinin də müəllifidir Bütün bu tarixi faktlar kitabda aşağıdakı kimi oxucuya təqdim edilir: "Məsələn, təhkiyəçinin dilinə diqqət yetirək: Bu söhbətlər 1879-cu ildə olmuşdur. Şöbənin açılmasına rəsmi icazə verilməsə də, onlar sentyabr ayına qədər beş-altı tələbə yığa bilmişdilər. ...Kitabın üstünü oxudu: "Vətən dili", onun dodaqları qaçdı. "Yaxud Çernyayevskinin dili ilə: "Bizim Şamaxıda Seyid Əzim Şirvani adlı bir şair var. Yeni üsulla məktəb açmaq istəyir (məktəbin açıldığı il : 1874, İ.İ.)... öz dilində dərslikləri də yoxdur".

İ.Şıxlı, eyni zamanda "Dəli Kür"də Çernyayevski və Rus Əhməd obrazları ilə maarifçilik ideyalarının xalq arasında təbliği nümunəsini verir. Elm və təhsilin dəyişdirici, intibaha səbəb olan mühüm qüvvə olduğuna işarə edir. Bu mənada tədqiqatçı alim İ.Şıxlı düşüncələrini təsdiqedici fakt kimi aşağıdakı kimi təqdim edir: Rus Əhmədin dilindən: "Elm dediyin işıq kimi bir şeydir, çoxaldıqca qaranlığın ömrü azalır, adamın gözünə nur gəlir". Yaxud Çernyayevskinin dili ilə: "...Elmli adamlar çox olsa, maarif inkişaf etsə, cəmiyyətdəki ədalətsizlik və haqsızlıqlar da yox olar".

Rus Əhməd, Çernyayevski, Kipiani müəllim obrazları ilə İ.Şıxlının bir müəllim kimi peşə keyfiyyətləri barədə fikirlərini prof. Əzizxan Tanrıverdi romandan gətirdiyi aşağıdakı nümunələrlə təsdiqləyir.

A.O.Çernyayevskinin dili ilə: "...Bəs tələbələrim? Məgər onlar mənim övladlarım deyilmi? Məgər mən öləndən sonra onların timsalında yaşamayacağammı? Müəllim üçün tələbəsini boya-başa çatdırmaq ən böyük səadət deyilmi? Məgər müəllim tələbələrini öz balalarından azmı sevir?...". Məhz mötəbər müəllimimiz belə keyfiyyətləri özündə birləşdirmişdi.

Azərbaycan məktəb və pedaqoji fikir tarixinə dərindən bələd olan İsmayıl Şıxlının

tarixi sənədləri romanın poetik strukturuna daxil etməsini təsadüfi saymaq olmaz. Romanda isveç pedaqoqu İ.H.Pestalossinin adının çəkilməsi, yeni təlim üsulunun ("sövtü", yaxud "səs" üsulu) tətbiqinin onun adı ilə bağlı olduğu məlum idi. İ.Şıxlı onu da bilməmiş deyildi ki, Krım tatarı görkəmli maarifçi İsmayıl bəy Qaspirinski İ.H.Pestalossi ilə görüşüb onun yeni təlim metodunu qəbul edərək özünün "Tərcüman" qəzeti vasitəsilə həmin ideyanı Türkiyədə, Azərbaycanda, Orta Asiya ölkələrində, Rusiyada yaşayan müsəlmanlar arasında geniş yayılmasına nail olmuşdur.

Onu da qeyd etməliyik ki, bədii əsərdə tarixi sənədlərə dəqiqliyi ilə istinad ancaq İ.Şıxlı yaradıcılığına məxsusdur. Bəhs etdiyimiz kitabın müəllifi bu fikri aşkarlayıb və xalq yazıçısının öz qələmindən çıxan sətirlərlə onu təsdiqləyib: "Romanda istifadə edilən bütün sənədlər Tbilisidəki Xalq Maarifi Muzeyinin arxivindən götürülmüşdür". Bu da təsadüfi deyil, çünki ZMC-a aid arxiv sənədləri həmin muzeydə saxlanılırdı. Təəssüf ki, Qamsaxurdiya hakimiyyəti dövründə seminariyanın Azərbaycan bölməsinə aid sənədlər dağıdıldı.

Romanda rast gəldiyimiz bəzi rəsmi sənədlərdə Qori Müəllimlər Seminariyasında siyasi baxışlarına görə təqib olunan müəllimlər barədə məxfi yazışmalar öz əksini tapmışdır. Bu sənədlərin mahiyyətinin aydın dərk olunması üçün bəzisini kitab müəllifi İ.Şıxlının tərcüməsində oxucuya təqdim edir:

"Mərhəmətli ağa!

Siz cənablara məlumdur ki, Sizin məhdi-himayənizdə olan seminariyada, gürcü dilindən dərs demək üçün cənab Kipianiyə rəsmi olaraq bu şəraitlə cavab verdim ki, Siz daim ona nəzarət yetirəsiniz və onu gözdən qoymayasınız. Buna baxmayaraq, Qoridə yaşayan etibarlı və rəsmi bir şəxs məlumat vermişdir ki, Kipiani şübhəli işlərlə məşğul olur, evinə müxtəlif adamlar yığıb hökumət əleyhinə kitablar oxuyur.

Həşəmətli cənab, bu məlumatı Sizə verməklə bərabər, artıq dərəcədə xahiş edirəm ki, Kipianinin həyat tərzi və nələr düşünməsi barədə əldə etdiyimiz məlumatları olduqca məxfi tərzdə mənə göndərəsiniz". Digər 27 oktyabr 1881-ci il 93 saylı məktubda isə Semyonovun təkidi əsasında Kipianinin seminariyada gürcü dilindən dərs deməsinə icazə verilir. Lakin ona ciddi nəzarət etmək, Kipianinin hərəkət və davranışı ilə əlaqədar məsuliyyət barədə Semyonova xəbərdarlıq edilir. Seminariyada belə bir siyasi qalmaqal Semyonovu narahat edir, qorxur, sanki əli qandallanıb Sibirə sürgün edilib, həbs ediləcəyi günü gözləyir. Onun həyəcan dolu təsəvvürlərini müəllif romandan gətirdiyi iqtibasla belə ifadə edir: "Semyonov qovluğu götürüb kənara itələdi. Elə bil otaqda hava çatışmırdı. Köynəyinin yaxasını açdı. Onun xəyalı təkər taqqıltısının arxasınca lap uzaqlara getdi. Qafqazı aşdı, Mərkəzi Rusiyanı keçdi və Sibirə doğru yollandı. Semyonova elə gəldi ki, çovğunlu, qarlı Sibirin qalın meşələri arasında tövşüyə-tövşüyə gedən qatarı, vaqonların pəncərələrindən boylanan solğun çöhrələri, əli-qolu qandallı dustaqları, heç nə anlamaq istəməyən, ucu nizəli tüfəngin qundağı ilə dustaqları vurub, söyüş söyən soldatları görür".

Bütün bu kimi məxfi arxiv sənədləri romana daxil edilərək açıqlanması Sovet imperiyasının tüğyan etdiyi bir vaxt, hər şeydən əvvəl, I Pyotrdan başlayaraq bugünkü günə qədər müstəmləkəçilik, şovinizm, millətçilik kimi siyasi mərəzlərinə qarşı İ.Şıxlının barışmazlığını, onun mübarizliyini cəsarət və mətnliyini təsdiq etmək idisə, digər tərəfdən, bu sənədlərin ruscadan Azərbaycan dilinə tərcümə edilərək romanda əks olunması isə onun qartal görümlü, müdrik bir siyasətçi olması ilə izah olunur. İ.Şıxlıya məxsus bu tendensiyanı prof. Əzizxan

Tanrıverdinin aşağıdakı abzasla düzgün ifadə etdiyinə şərik oluruq: "Xüsusi olaraq vurğulamaq lazımdır ki, "Dəli Kür" romanı çap olunan dövrdə - 1967-ci ildə məmurlar sovet imperiyasının (əslində rus imperiyasının) diktəsi ilə soydaşlarımıza adi ərizəni belə rusca yazdırırdı. Bu mənada rəsmi məktubları rus dilində olduğu kimi deyil, Azərbaycan dilinə tərcümə edərək romanın poetik strukturuna daxil edən İ.Şıxlı uzaqgörən siyasətçi, böyük şəxsiyyətdir".

İ.Şıxlının "Dəli Kür"ü təhsil tariximizi özündə birləşdirən dəyərlərlə yanaşı, gənc nəslin mənəvi saflığını, əxlaqi kamilliyini təmin edən dəyərlər sistemi ilə də zəngindir. Yeri gəlmişkən, rus pedaqoqu Uşinski xalq yaradıcılığı, onun yaratmış olduğu dəyərli tərbiyə işinə təsir edən, geniş imkanlara malik ən başlıca vasitə hesab edərək, bununla heç bir rəsmi pedaqogikanın yarışa bilmədiyini söyləyirdi. Bu baxımdan romandakı hər bir obrazın xarakterinə uyğun mənəvi dəyərləri ifadə edən atalar sözlərini zərgər dəqiqliyi ilə seçərək, mirvari dənəcikləri kimi sapa düzməsi kimi xeyirxah işə görə kitab müəllifi prof. Əzizxan Tanrıverdiyə minnətdarlıq etməmək olmaz. Əhatə dairəsinin genişliyi və zənginliyi ilə fərqlənən dəyərlər, mənəvi əxlaqi keyfiyyətlərin tədqiqi və təhlilinə xüsusi ehtiyac duyulduğunu nəzərə alsaq, bu yazıda qoyulan tərbiyəvi problemlər barədə geniş araşdırmalar aparmaq imkanı xaricində olduğumuzu dərk edərək bu zəngin materiallardan müxtəsər söhbət açmağa məcburuq.

Ayrı-ayrı obrazların dili ilə söylənilən, insanın mənəvi tərbiyəlilik səviyyəsini müəyyənləşdirən mərdlik, mübarizlik, igidlik, kişilik, namus, qeyrət kimi əxlaqi-mənəvi keyfiyyətlərin gənc nəsildə formalaşdırılmasına təhrik edən atalar sözləri: "Ət yeyən quş dimdiyindən bilinər". Cahandar ağanın dili ilə deyilən: "Bir ovuc qanından qorxan namərddir". Yaxud dərsliyini müzakirəyə çıxarmağa ehtiyat edən A.O.Çernyayevskinin "Ancaq müzakirəyə verməyə ürəyim gəlmir. Bilirsinizmi, ilk təşəbbüsdür, qorxuram müvəffəq olmayam" fikrinə qarşı işlədilmiş "Qurddan qorxan meşəyə girməz" atalar sözü, yaxud "Qeyrətli kişi arvada əl qaldırmaz", "Kişi tüpürdüyünü yalamaz". Mələyi qaçırdığı ilk günlərdən onu bu cür sözlərlə sakitləşdirən Cahandar ağa Mələyi axıra qədər arvad kimi saxlayır. Tüpürdüyünü yalamır. Allahyar isə arvadı Mələyə görə qınanır: "Ay bala, namusu itə atıblar, it yeməyib, bəs sənin qeyrətin hanı? Niyə gedib arvadını axtarmırsan?".

Dostluq, yoldaşlıq, birlik, sədaqət və hörmət tərbiyəsini tələqin edən atalar sözləri: "Böyüyün sözünə baxmayan böyürə-böyürə qalar", "Tək əldən səs çıxmaz", "Yoldaş yoldaşa tən gərək, tən gəlməsə gen gərək", "Qonağa əl qaldırmazlar. Adam da qonağa əl qaldırarmı?", "Bardağa girdin, oldun bardaq suyu" və s. Obrazların dilindən söylənilən bu atalar sözlərində gizlənən yuxarıda qeyd etdiyimiz mənəvi-əxlaqi keyfiyyətləri bir ailə çərçivəsi ilə məhdudlaşdırmaq olmaz. Ə.Tanrıverdi də bu dəyərləri xüsusi olaraq qiymətləndirir. İ.Şıxlıya görə, vətəninin, xalqının xoşbəxtliyi naminə çalışan insanlar arasında dostluq, birlik, yoldaşlıq, sədaqətlilik, qarşılıqlı hörmət və ehtiramın olması eyni məqsəd uğrunda mübarizəni daha da asanlaşdırır. Bu əlaqələr nə qədər möhkəm olarsa, insan qarşıya qoyduğu məqsədə bir o qədər tez çatar. O, xalqın səadəti uğrunda mübarizədə qələbə çalmaq üçün həmrəy olmağı, birlikdə fəaliyyət göstərməyi əsas şərt hesab edirdi. Çünki birlik, həmrəylik tükənməz qüvvə mənbəyidir.

İsmayıl Şıxlıdan bəhs edən əsərlərdə prof. Ə.Tanrıverdinin monoqrafiyasında xüsusi olaraq vurğulanır ki, İ.Şıxlı gənc nəslə aşılanılması vacib olan əxlaqi sifətləri - təmkinli, səbirli, tədbirli və ehtiyatkar olmağı tövsiyə edir. Çünki bu keyfiyyətlər

insanda məqsəd aydınlığı yaradır. Məhz məqsədə çatmaq üçün təmkinli, ehtiyatlı olmağı, ağılla, səbrlə, düşüncə ilə hərəkət etməyi, son nəticəni əldə etməyin vacib şərti sayır. Ə.Tanrıverdi romandakı "Acıqlı başda ağıl olmaz", "Ehtiyat igidin yaraşığıdır", "Ehtiyatlı igidin anası ağlamaz" atalar sözlərini yaxud "Adam bir iş görəndə fikirləşər. Hər yetənin sözünə baxıb toy toğlusu kimi ortalığa düşmə" kimi ifadələrdən çox məharətlə istifadə edildiyini konkret faktlarla əsaslandırır.

İ.Şıxlının kamil müəllim olaraq romanda maarifə, məktəbə, elmə çağırış, onun əhəmiyyəti məsələlərinə geniş yer verməsi təsadüfi deyil. Bununla yazıçı-pedaqoq gənc nəslə həyatda gözüaçıq olmaq, fakt və hadisələri düzgün, aydın dərk etmək, yüksək ideallar uğrunda mübarizə aparmaq və qələbə çalmaq üçün elmin üstünlüklərini, faydalarını həyati faktlarla başa salır: "...Bizim məqsədimiz sizin uşaqlarınızı oxutmaq, onlara elm öyrətməkdir... Elmsiz adam kor kimidir".

İ.Şıxlının məktəb, təhsil, tərbiyə problemləri ilə bağlı pedaqoji yönümlü ideyalarla zəngin olan təkcə "Dəli Kür" romanı onun əməli-pedaqoji fəaliyyətini və düşüncələrinin tədqiq edilməsi və öyrənilməsinə böyük ehtiyac duyulur. İsmayıl Şıxlının ədəbi-bədii yaradıcılığına yeni kontekstdə yanaşaraq romanda özünü göstərən, lakin tədqiqatçıların diqqətindən kənarda qalmış məqamları, xüsusən də pedaqoji dəyərləri üzə çıxarıb aşkarlamaq tədqiqatçılarımızın başlıca vəzifələridir. İsmayıl Şıxlının şah əsəri olan "Dəli Kür" romanı onun ədəbiyyatımıza gətirdiyi yenilik kimi dəyərləndirilmiş və dünya ədəbiyyatı epopeyalarının cərgəsinə daxil olmuşdur.

İstifadə edilmiş ədəbiyyat

1. Hacıyev T. Yazıçı dili və ideya bədii təhlil. Bakı, 1979.
2. Təyyar Salamoğlu. Ən yeni Azərbaycan ədəbiyyatı. Bakı, 2008.
3. Əzizxan Tanrıverdi. "Dəli Kür" romanının poetik dili. Bakı, 2012.
4. Əjdər Ağayev. Qloballaşma və təhsil. Azərbaycan məktəbi, 2010, № 4.

И.Исаев,
С.Тагиева

Национально - этические ценности в творчестве И.Шыхлы

Резюме

В статье обращается внимание на этические нормы и художественные реалии творчества известного азербайджанского писателя Исмаила Шыхлы. Писатель заостряет внимание читателя на такие вопросы, как что собой представляет настоящий учитель, который всю свою жизнь и творческую деятельность посвятил обучению и воспитанию подрастающего поколения.

İ.İsayev
S.Tagiyeva

National moral values in the novel "Wild Kura" by I. Shikhli

Summary

In the article it is noted that the novel is the valuable play expressing moral values. It is noted that as a perfect pedagogue I.Shikhli paid great attention to enlightenment and education issues in this novel. Showing real life facts the author explains the benefit of education and struggle for furthure development.